# İNSAN HƏRƏKƏTLƏRİNİ TƏQLİD ETMƏK



BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ

Azercell


Birgə və
Sağlam İB
“Autizm portalı”
BİRGƏ VƏ SAĞLAM
İCTİMAİ BİRLİYİ
Azercell

# İNSAN HƏRƏKƏTLƏRİNİ TƏQLİD ETMƏK

Təqlid həm sosial, həm də zehni inkişafın önəmli bir hissəsidir. Sosial olaraq təqlid, şəxsin özü və başqaları arasında qarşılıqlı ünsiyyət qurmasına və digərlərinin niyyətlərini anlamağına zəmin hazırlayır. Zehni olaraq taktil, dil və onun inkişafı üçün bir təməl yaradır. Tipik inkişaf göstərən uşaqlar, yaşamlarının ilk aylarından başlayaraq bir çox bacarığı, başqalarını müşahidə edərək qazanırlar. 9 aya qədər uşaqlar, əşyalar üzərində hərəkətləri həm o anda, həm də gecikmiş olaraq təqlid edə bilirlər və uşaqlar təqlid yolu ilə digərlərinin hərəkətlərini və niyyətlərini öyrənə bilərlər. Ancaq autizmli uşaqların çoxu, başqalarının davranışlarını təqlid etmə bacarığını çox məhdud formada sərgiləyə bilərlər.

Bu hal, autizmli uşaqların bir çox inkişaf sahəsində yaşıdlarıyla müqayisədə çox qeyri-kafi olmalarının ən önəmli səbəbi olaraq düşünülür. Buna görə də təqlid bacarığının qazanılması, onların daha qarışıq bir çox bacarığı qazana bilmələri üçün ilkin şərt yaradır.

Təməl təqlid bacarıqları, ümumiləşmiş sözlü olmayan təqlid bacarıqlarından yaranır. Təqlid bacarığının ümumiləşmiş olması uşağın yeni qarşılaşdığı bir davranışı, tədris müddətinə gərək olmadan təqlid edə bilməsi anlamına gəlir. Autizmli uşaqların bir çoxu təməl təqlid bacarıqlarını qazana bilirlər. Ancaq irəliləmə sürətində önəmli fərdi fərqlərə rastlanır. Təməl təqlid bacarıqlarının tədrisinə uşaq diqqətini yönəltmə bacarığında bəlli bir irəliləmə göstərən zaman başlana bilər.



# DƏYƏRLƏNDİRMƏ

Övladınızın alıcı dilini dəyərləndirdikdən sonra təqlid bacarıqlarını dəyərləndirin. Bir neçə ədəd bir-biriylə eyni iki əşyaya ehtiyacınız olacaq, yəni iki eyni qələm, eyni fincan kimi düşünə bilərsiniz. Eyni və ya bir-birinə çox bənzəyən iki maşınları masaya və ya yerə qoyun, ardınca maşını bir neçə dəfə irəli-geri hərəkət etdirərək övladınıza da "belə et" deyin. Övladınız öz maşınıyla, sizin hərəkətlərinizin eynisini edib-etmədiyinə baxın. Daha sonra, qələmə keçin. Maşınları götürüb yerinə qələmləri qoyun. Öz qələminizi götürün və masaya vuraraq "Belə et" deyin.

Oyuncaq/əşya təqlidini dəyərləndirdikdən sonra, böyük motor təqlid bacarıqlarına keçin. Bunlar hoppanmaq və ya əl çalmaq kimi qolların, ayaqların daxil olduğu hərəkətlərdir.
Böyük motor təqlid bacarıqları üzərində çalışarkən sırayla bu bacarıqlar üzərində dəyərləndirməyə keçin. Yeni təqlid bacarıqlarını, övladınızın xüsusiyyətlərini nəzərə alaraq, aşağıdakı siyahıdan seçə bilərsiniz, ya da öz yaradıcılığınızı işlədib bənzər bacarıqlar tapa bilərsiniz.

- Masaya tık-tık etmək
- Ayağa qalxmaq
- Əlləri belə qoymaq
- Ayaqda hoppanmaq
- Əl sallamaq
- Əllərlə gözləri bağlamaq
- Tək ayaq üzərində hoppanmaq
- Qollarla dairəvi hərəkət etmək

Övladınız "belə et" deməyinizdən başqa , ipucu verməyinizə ehtiyac qalmadan hərəkətlərinizi təqlid etməlidir. Cümlələri istifadə etməyin , məsələn "Əl çal" və ya "Hoppan" demədən sadəcə "Belə et" deyərək sizi təqlid edib-etmədiyinə baxın.



Əgər əl çalarkən eyni zamanda “Əl çal” deyirsinizsə, alıcı və motor təqlid bacarıqları olaraq iki fərqli bacarığı dəyərləndirmiş olacaqsınız. Dəyərləndirmə əsasında , bu iki bacarığın dəyərləndirməsini bir-birindən ayrı tutmaq önəmlidir. Ən sonda uşağınız, heç ipucu olmadan sizi təqlid edə biləcək hala gəlməlidir. Amma ilk başlarda uşaqlar “belə et” təlimatına ehtiyac hiss edərlər. Exolaliya bacarıqlarında olduğu kimi, inkişaf pozuntusu olan uşaqların əksəriyyətində təqlid bacarığı ya heç yoxdur, ya da tam əksi olaraq hər şeyi təqlid edirlər. Doğru dəyərləndirmə işin açarıdır.

İrəliləyən mərhələlərdə, sıralanan kiçik motor bacarıqlarından, övladınızın xüsusiyyətlərinə ən uyğun olanları seçərək öyrədin:

- Bir əlin işarət barmağıyla digər əlin ovcuna toxunmaq
- İşarət barmaqlarının uclarını bir-birinə toxundurmaq
- Başbarmaqların uclarını bir-birinə toxundurmaq
- Əlləri bir-birinə sürtmək
- İşarət barmağıyla dodaqlara toxunmaq
- “Əla” işarəti etmək (digər barmaqları bağlayıb baş barmağı qaldırmaq)
- Yumruq tutulan əlin barmaqlarını, baş barmaqdan başlayaraq sırayla açmaq
- Yumruq edilən barmaqlarını sırayla açarkən sağ əlin işarət barmağıyla hər birinə toxunmaq

Üzərində çalışılan hər təqlid bacarığına ilk başlarda hər gün, getdikcə bir neçə gündə bir, son mərhələdə həftədə bir dəfə yer verin. Qazanılan bacarıqların fərqli mühitlərə və insanlara ümumiləşdirməsini edin.



# TƏDRİS



Tipik inkişaf göstərən uşaqlara təqlid etmək çətin gəlməz, onlara bu bacarığı öyrətmək üçün çaba sərf etməyə ehtiyac yoxdur. Amma autizmli uşaqlar, başqa insanları təqlid etmək mövzusunda ciddi bir çatışmazlığa sahibdirlər və təqlid bacarıqları olduca zəifdir. Onların, oyuncaqlarıyla oynayan digər uşaqları təqlid edərkən və ya ana-atalarının etdiyi ev işlərini onlar kimi etməyə çalışırkən, ya da bağçada dairə quraraq dayandıqları digər uşaqların əl hərəkətlərini təkrar edərkən görə bilməzsiniz.

Təqlid etmə bacarığı, bu sahədə çatışmazlığı olan uşaqlara öyrədilməsi vacib olan ən önəmli bacarıqdır. Bəzi programlarda ayağı yerə vurmaq və əl çalmaq hərəkətlərindən ibarət böyük motor təqlidi, ilk öyrədilən şeydir. Mütəxəssislər bu nöqtədən sonra incə motor təqlidinə, daha sonra ağız motor təqlidinə və ordan da səsli təqlidə keçməyi tövsiyyə edirlər. Başlanğıcda heç bir təqlid bacarığı olmayan və komanda verildiyində heç təkrar etməyən bir uşaqa təlim verilərkən istifadə olunan sıralama da budur. Sıralama işə yaradığı halda, sözlü təqlid məşqlərinə keçilməsi aylar alır.

Təqlid mövzusu çox ciddi yanaşılmalı mövzudur. Ancaq sözlü təqlid bacarıqları sahəsində çalışmağa başlamazdan öncə motor təqlid bacarıqlarının uşaqda oturmasını gözləmək məcburiyyətində deyilsiniz. Növbəti hissədə sözlü təqlid (exo) bacarığından danışacağıq, indi isə sıra motor təqlid bacarıqlarını necə öyrədəcəyinizi öyrənməyə gəldi.

Yeni başlayanlar üçün ümumiyyətlə tətbiq etdiyimiz iki təqlid programı var. Bunlar sırayla, oyuncaq/əşya təqlidi və böyük motor təqlididir. Tətbiq etdiyiniz bu programlara yönəldilən tənqidin ortaq tərəfi , oyun bacarıqlarına yetəri qədər diqqət verməməyimizdir. Əslində tənqid edən şəxslər, bizim tək maraqlandığımız şeyin nitq məşqləri etmək olduğunu, halbuki azyaşlı uşaqların dil daxil hər şeyi oyunla öyrəndiyini söyləyərək tənqidlərini dilə gətirirlər. Təcrübəyə əsasən hər uşağın oyuncaqları sevmədiyinə, bəzən oyun oynayırmış kimi etməyi belə bilmədiyinə və ya oyunlara heç bir maraq göstərməyəcəklərinə inanırıq. Onlara dil bacarıqlarını necə öyrətdinizsə, oyun bacarıqlarını da elə öyrəcəyinizə əmin olun. Oyun bacarıqlarını isə digər bütün dərsləri necə öyrədiriksə, eyni qayda da davam edirik, yəni az maraq göstərdiyi oyuncaqları çox maraq göstərdiyi mükafatlarla əlaqələndiririk.

Tədrisimizə oyuncaq təqlidiylə başlamaq mükəmməl olar. Oyuncaq, başlanğıc səviyyəsindəki bir uşaqda rahatlıqla tətbiq edə biləcəyiniz bir mərhələdir və istək bildirmə programlarına daxil edə bilərsiniz. Oyuncaqlara mükəmməl deməyimizin səbəbi uşaqların sizi oyun yoldaşı rolunda görəcək olmaları və əslində çalışma etdiklərini heç anlamamalarıdır.



Övladınızın marağı körpəlik dövrünün oyuncaqlarınadırsa, ilk onlarla başlayın. Başlanğıc mərhələsində istifadə edə biləcəyiniz digər yararlı oyuncaqlar: fincanlar və qaşıqlar , oyuncaq fiqurlar, oyuncaq evlər və maşınlardır. Programınızı iki tam eyni oyuncaq seti ilə başladın, beləliklə həm sizin , həm də uşağınızın önündə eyni oyuncaq olur. Siz fəaliyyətə davam edərkən , yəni maşını xalçanın üzərində irəli-geri hərəkət etdirərkən və ya fincanın içinə qaşığı salıb qarışdırarkən, “belə et” deyin və dərhal uşağın əlini tutun onun oyun setində eyni hərəkəti etməsi üçün ona ipucu verin. Ardından ipucunu, indiyə qədər verdiyiniz bütün tədris programlarında dediyimiz kimi seyrəkləşdirin.

Başlanğıc üçün sadəcə bir neçə hədəf seçin. “Belə et” deyib qaşıqla fincanı qarışdıra bilərsiniz, ipucu verirsiniz, zəiflədirsiniz və ardından “belə et” deyərək qaşıqla uşaq yedirirmiş kimi edərsiniz. Bu cür bir öyrətmə, qaşığın fərqli istifadə məqsədlərini ayırd edə bilməyi öyrənməsində övladınıza kömək edəcəkdir.

Əgər tək qaşıqla fincan qarışdırmaq kimi bir hədəf seçsəniz, övladınız böyük ehtimal fincanı gözüylə görəcək, qulağıyla “ belə et” təlimatını eşidəcək və qaşığı götürüb fincanı qarışdıracaqdır.

Həmzə ilə bir nümunəyə baxaq:
Ana: “belə et”. Maşını irəli-geri sürür və dərhal Həmzənin öz maşınını sürməsi üçün ona tam fiziki ipucu verir.
Həmzə: İpucuyla maşını irəli-geri sürür.
Ana: “Doğrudur, belə et” . Maşını irəli-geri sürməyə davam edir. (Həmzənin maşınına işarə edir və ya ehtiyac olarsa , fiziki ipucu verir).
Həmzə: Jest ipucuyla maşını irəli geri sürür.
Ana: “ Çox qəşəng etdin... al sənə rəngli karandaş və kağız”. ( Uşağın istədiyi fərqli əşya ola bilər, bu sizə görə dəyişir)

Oyuncaq təqlidi programıyla birlikdə irəliləməklə , başqa bir motor təqlid programı başlamağınız tövsiyyə olunur. Alıcı dildə, komanda və bədən üzvləri programınızda hədəflədiyiniz reaksiyaları burda da seçmək mümkündür. Bu bacarıqlar birindən digərinə ötürmək asan olduğundan, uşağın hədəflərdə ustalaşmasına zəmin yaradacaqdır. Amma öncəliklə ümumi dəyərləndirmənizi doğru etdiyinizdən əmin olun. Təcrübəmizdən bir nümunəyə diqqət yetirək. Mütəxəssis "Əl çal" deyir və özü əl çalır. Bu zaman hansı bacarığı dəyərləndirdiyini bilməliyik. Əgər alıcı dil bacarıını dəyərləndirirsə, "Əl çal" deyərək ona səsli ipucu verməməlidir. Hər bacarıq ayrı-ayrılıqda dəyərləndirilməlidir. Təqlid bacarıqlar daima bir komanda ilə dəyərləndirilir : ."belə et". Ümumi dəyərləndirmə tamamlananda isə, eyni hədəfləri seçməyin avantajı ortaya çıxır. Tədris əsnasında bacarıqlar arasında transfer metodları istifadə edə bilərik, beləliklə transferin ardından uşağınızın hədəflərdə daha sürətli ustalaşdığını və daha yaxşı ümumiləşdirmə etdiyini görəcəksiniz.

Həmzə ilə motor təqlid bacarığı tədrsininə nümunəylə baxaq:

Ana : "Belə et". Əl çalır və fiziki ipucu verir.
Həmzə: Əl çalır.
Ana : " Doğrudur- belə et". Əl çalır.
Həmzə: İpucu olmadan əl çalır.
Ana: "Belə et" iki əliylə başına toxunur.
Həmzə: İki əliylə başına toxunur.( bu daha öncədən bildiyi bacarıq olduğu üçün ipucu verilmir)
Ana: Əla!- Belə et. Əl çalır.
Həmzə: İpucu olmadan əl çalır.
Ana: "Çox gözəl etdin". Böyük bir lələklə Həmzəni qıdıqlayır.

Böyük motor təqlid bacarıqları üzərində çalışarkən ayrıca sırayla bu bacarıqlar üzərində də çalışa bilərsiniz: əllə dizə vurmaq, ayağı havaya qaldırmaq, qolu havaya qaldırmaq, əllərlə qarına vurmaq. Bu bacarıqların tədrisinin yer alacağı cəhdlərdə uşaqla qarşılıqlı olaraq stula oturun.

Birinci bacarığın tədrisi əsnasında dizləriniz bir-birinə toxunacaq şəkildə oturun. Cəhdlərin başında "belə et" deyib, iki əlinizlə dizlərinizə iki dəfə möhkəm vurun. Övladınıza da , dizlərinə vurması üçün fiziki ipucu verin. Başlanğıcda ipuclu doğru reaksiyalar üçün davamlı olaraq mükafatlandırma edin. Uşağın ipucsuz doğru reaksiyaları olduqca (kömək almadan göstərdiyi reaksiyalar) bu reaksiyaları ipuclu doğru reaksiyalara görə daha çox mükafatlandırın. İpucsuz doğru reaksiyalar artdıqca ipuclu doğru reaksiyaları mükafatlandırmayın və sadəcə ipucsuz doğru reaksiyaları mükafatlandırın.

Başlanğıcda hər ipucsuz doğru reaksiya mükafatlandırılarkən bu reaksiyalar artacağı üçün getdikcə ipucsuz doğru reaksiyalardakı mükafatlandırmalarınızı azaldın. Bu tətbiqi bütün bacarıqlar üçün edin. Bu bacarıqda qazanma əldə olunduqdan sonra ümumiləşdirmə çalışmalarına keçilə bilər və hər bir ümumiləşdirmə növünə uyğun çalışmalar edə bilərsiniz. Unutmayın ki, ümumiləşdirmə çalışmalarını edərkən bir sonraki bacarıq üzərində çalışmağa başlayırsınız.

İkinci bacarıqda uşağın sol ayağını sizin sağ ayağınızın (və ya ayaqqabınızın) üzərinə qoyun. Cəhdin əvvəlində "Belə et" deyin, sağ ayağınızı 20-30 sm yuxarı qaldırıb endirərək, sağ ayağınızın üzərində duran uşağın sol ayağını da tam fiziki ipucu ilə qaldırıb endirmiş olun. İpucu verərkən getdikcə ayağınızı daha az qaldırın və geri qalan qaldırmağı uşağın özünün etməsini gözləyin.

Üçüncü bacarıqda, "Belə et" deyib sağ qolunuzu havaya qaldırın, uşağın da ipucuyla sol qolunu havaya qaldırmasını təmin edin.

Dördüncü bacarıqda, "Belə et" deyib iki əlinizlə qarnınıza incə şəkildə vurun və dərhal ardından da eyni hərəkəti fiziki ipucuyla etdirin.

Üzərində çalışılan hər təqlid bacarığına ilk başlarda hər gün, getdikcə bir neçə gündə bir, son mərhələdə isə həftədə bir dəfə yer verin. Qazanılan bacarıqların öncəliklə fərqli məkanlara, fərqli insanlara ümumiləşdirilməsini təmin edin. Qazanma vasitələriylə yanaşı bənzər lakin eyni olmayan ümumiləşdirmə vəsaitlərini istifadə edərək də fərqli vəsaitlərə də ümumiləşdirməsini çalışa bilərsiniz. Qazanma təmin olunduqdan dərhal sonra ümumiləşdirməyə  başlanıla bilər. Ümumiləşdirilmə çalışmalarının tamamlanmasını gözləmədən yeni bir bacarıq qazandırmağa başlaya bilərsiniz.